# Rüstəm BEHRUDİ - 65



Hörmətli Rüstəm Behrudi!

Sizi 65 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1957-ci ildə Ordubad rayonunun Behrud kəndində müəllim ailəsində anadan olmusunuz. Naxçıvan Dövlət Pedaqoji İnstitutunun tarix-ədəbiyyat fakültəsini fərqlənmə diplomu ilə bitirdikdən sonra (1975-1979) Ordubadın Unus kənd orta məktəbində əmək fəaliyyətinə başlamış, sonralar "Yazıçı" nəşriyyatında müxtəlif vəzifələrdə çalışmış, "Azərbaycan" qəzetinin yaradıcılarından olmusunuz. Milli Yaradıcılıq Akademiyasının doktoru, DAK Mədəniyyət Akademiyasının fəxri üzvü seçilmisiniz. Türkiyənin Türk dünyası uluslararası şeir festivalının qızıl medalının (böyük ödülün) sahibisiniz.

Siz ədəbi yaradıcılığa ötən əsrin 70-ci illərindən başlamısınız. "Yaddaşlara yazılan", "Şaman duası", "Salam, dar ağacı", "Din sevdim din üstünə", "Tənhalıqda ölüm qorxusu yoxdur" (Ankara), "Yer üzü görüş yeridir" (Ankara), "İblis mələkdən gözəldir", "Daha gülə-gülə ağlamaq olmur" və s. kitablarınız nəşr olunub.

Hörmətli Rüstəm Behrudi!

Sizi bir daha 65 illik yubileyiniz münasibətilə təbrik edir, sizə uzun ömür, yaradıcılığınızda yeni uğurlar arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**

**Ədəbiyyat qəzeti.- 2022- ci il.- 10 sentyabr.- S. 6.**